## AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ

## BAKI SLAVYAN UNİVERSİTETİ

### I Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Beynəlxalq Türkoloji Tədqiqatlar Konfransının

## MƏLUMAT MƏKTUBU

**Hörmətli həmkarlar,**

Sizi 07 aprel 2026-cı il tarixində Bakı Slavyan Universitetində keçiriləcək **BEYNƏLXALQ TÜRKOLOJİ TƏDQİQATLAR KONFRANSINDA** iştirak etməyə dəvət edirik.

**Beynəlxalq Türkoloji Tədqiqatlar Konfransının** keçirilməsində əsas məqsəd türkologiya elminin tarixi inkişaf mərhələlərinin və müasir istiqamətlərinin elmi müstəvidə müzakirə olunduğu, türk dilləri, türk xalqlarının ədəbiyyatı, tarixi, etnoqrafiyası və mədəni özünəməxsusluğu ilə bağlı aktual problemlərin araşdırıldığı beynəlxalq elmi platforma yaratmaqdır.

Konfrans türk dünyasının aparıcı alimlərini, tədqiqatçılarını bir araya gətirməklə:

- türkologiya elminin aktual problemləri üzrə multidissiplinar elmi dialoqun qurulmasını;
- türk xalqları arasında akademik əməkdaşlığın gücləndirilməsini;
- ortaq elmi layihələrin və tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsini;
- türk dillərinin müasir problemlərinin və inkişaf perspektivlərinin elmi əsaslarla dəyərləndirilməsini hədəfləyir.

## KONFRANSIN ƏSAS İSTİQAMƏTLƏRİ

### 1. I Türkoloji Qurultay: tarixi, elmi irsi və müasir türkologiyaya təsiri

Bu bölmədə aşağıdakı mövzuların müzakirəsi nəzərdə tutulur:

- qurultayın keçirilməsinə səbəb olan tarixi-ictimai şərait;

- qurultayın əsas məqsəd və vəzifələri;
- qurultayda iştirak edən alimlər, ziyalılar və nümayəndə heyəti;
- qurultayın gündəliyində duran əsas məsələlər;
- türk xalqlarının dil, əlifba, yazı və orfoqrafiya məsələləri;
- qurultayın qəbul etdiyi qərarlar və qətnamələr;
- qurultayın türkologiya elminin inkişafına təsiri və tarixi əhəmiyyəti.

### 2. Ortaq türk dili, ortaq əlifba və dil siyasəti

Bu bölmədə aşağıdakı mövzuların müzakirəsi nəzərdə tutulur:

- I Türkoloji Qurultayda təqdim edilmiş məruzələrin elmi təhlili və müasir yanaşmalar;
- türk dillərinin tədrisi və öyrənilməsi məsələləri;
- türk dilləri arasında dil birliyinin yaradılması və qarşılıqlı anlaşma yolları;
- ortaq yazı qaydalarının formalaşdırılması;
- ortaq türk əlifbası konsepsiyası və tətbiqi perspektivləri;
- ortaq terminologiya və qrammatik normaların müəyyənləşdirilməsi;
- dil siyasəti və dil planlaşdırılması məsələləri.

### 3. Türk dünyası: yeni geosiyasi reallıqlar

Bu bölmədə aşağıdakı mövzuların müzakirəsi nəzərdə tutulur:

- türk dövlətləri arasında enerji və iqtisadi əməkdaşlıq;
- texnologiya, innovasiya və rəqəmsal transformasiya sahəsində tərəfdaşlıq;
- ticarət-iqtisadi, nəqliyyat və kommunikasiya əlaqələrinin genişləndirilməsi;
- siyasi və diplomatik münasibətlərin inkişaf istiqamətləri;
- Cənubi Qafqaz regionunda Azərbaycanın regional və beynəlxalq lider mövqeyi;
- transregional nəqliyyat və dəmir yolu layihələrinin iqtisadi və geosiyasi əhəmiyyəti.

### 4. Türk dünyasında slavyanşünaslıq, slavyan dünyasında türkoloji tədqiqatlar

Bu bölmədə aşağıdakı mövzuların müzakirəsi nəzərdə tutulur:

- türk dünyasında slavyan dillərinin və mədəniyyətinin öyrənilməsi;
- türk və slavyan xalqları arasında tarixi, mədəni və elmi əlaqələr;
- türk xalqlarının dili, tarixi, ədəbiyyatı və folklorunun müqayisəli tədqiqi;
- yox olmaq təhlükəsi altında olan türk dillərinin araşdırılması və sənədləşdirilməsi;

- slavyan ölkələrində türk dilləri, tarixi, mədəniyyəti və etnoqrafiyası üzrə aparılan tədqiqatlar;
- qarşılıqlı elmi məktəblərin formalaşması və tədqiqat ənənələri.

## 5. Türk xalqları tarixinin, dil və ədəbiyyatının aktual problemləri

Bu bölmədə aşağıdakı mövzuların müzakirəsi nəzərdə tutulur:

- türk xalqları tarixinin mübahisəli və az tədqiq edilmiş məsələləri;
- yeni metodoloji və konseptual yanaşmalar;
- arxiv mənbələrinin və rəqəmsal resursların elmi dövriyyəyə cəlb edilməsi;
- tarixşünaslıq problemləri və müqayisəli tarix tədqiqatları.

## Konfransın işçi dilləri:

**Azərbaycan dili, türk dili, ingilis dili və bütün türk dilləridir.**

**Konfransın mühüm tarixləri:**

| | |
|---|---|
| ***Məqalələrin göndərilməsi üçün son tarix*** | ***06 mart 2026-cı il*** |
| ***Qəbul olunmuş məqalələr haqqında müəlliflərə məlumatın verilməsi*** | ***17 mart 2026-cı il*** |
| ***Məruzəni müşayiət edən təqdimatın (PPT/PPTX) göndərilməsi üçün son tarix (əgər varsa)*** | ***30 mart 2026-cı il*** |
| ***Konfransın keçirildiyi tarix*** | ***07 aprel 2026-cı il*** |
| ***Konfrans materiallarının nəşri*** | ***01 iyun 2026-cı il*** |

**Konfrans materiallarının tərtibinə qoyulan tələblər (APA7 üslubunda)**

**Format:** A4, ölçü 12 pt, şrift Times New Roman, hər tərəfdən kənar boşluqlar 2 sm, sətirarası interval 1,5, abzas 1,25. **Mətnin sözləri sətirdən sətirə keçirilmədən yığılmalıdır.**

**Müəllif haqqında məlumat (Forma 1) və məqalə (Forma 2).**

**Forma 1. Müəllif haqqında məlumat**

| | |
|---|---|
| **Müəllifin adı, atasının adı, soyadı** | |
| **İş yeri və vəzifəsi** | |
| **Elmi adı və elmi dərəcəsi** | |
| **ORCID İD** | |
| **Əlaqə telefonu** | |

| | |
|---|---|
| **Elektron poçt ünvanı** | |
| **Məqalənin adı** | |
| **Konfransın istiqaməti** | |
| **Açar sözlər** | |

**Forma 2. Məqalə** (forma 1-dən sonra yerləşdirilir)

**Məqalənin strukturu və tərtib qaydaları:**

1. **Məqalənin adı** (böyük hərflərlə, qalın şriftlə, ortadan)
2. **Müəllifin adı, soyadı adı** (tam açıqlanmalı, kiçik hərflərlə, qalın şriftlə, sol tərəfdən)
3. **Elmi dərəcəsi, elmi adı, iş yeri, ölkə, şəhər, e-mail ünvanı, ORCID İD** (tam açıqlanmalı, kiçik hərflərlə, adi şriftlə, sağ tərəfdən)
4. **Açar sözlər** (5-7 söz, məqalənin yazıldığı dildə və ingilis dilində)
5. **Xülasə** (250 söz, məqalənin yazıldığı dildə və ingilis dilində)
6. **Məqalənin mətni** (bütün tərtibat daxil olmaqla 8 səhifəyə qədər)
7. **Ədəbiyyat siyahısı** (əlifba sırası ilə). Ədəbiyyata istinadlar mətndə mötərizədə mənbənin nömrəsi və səhifəsi göstərilməklə verilir. Məsələn: [2] və ya [2; 5; 8] və ya [2; 14-15]

Müəllif haqqında məlumat və məqalə bir faylda 06 mart 2026-cı il tarixindən gec olmayaraq https://bsu-uni.edu.az/Elm/Seminar1 linki vasitəsilə qeydiyyatdan keçərək göndərilməlidir.

Təqdim olunan bütün məqalələr müəllif mətninin orijinallıq dərəcəsi baxımından ekspertizadan keçiriləcəkdir.

**Əlaqə və ətraflı məlumat:** +994 50 626 46 09

+994 55 806 25 93

Azərbaycan Respublikası, Bakı şəhəri, Bakı Slavyan Universiteti, AZ1014, S.Rüstəm küç., 33